2020-ci ilin yanvar ayında muxtar respublikada nəqliyyat müəssisələri və avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 920,3 min ton yük, 6718,3 min sərnişin daşınmışdır. 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 1,1 faiz, sərnişin daşınması 1,2 faiz artmışdır. Yük və sərnişin daşınmasından bütövlükdə 3754,4 min manat gəlir əldə edilmişdir ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 3,7 faiz çoxdur.

Qeyri-dövlət sektorunda 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 2 faiz, sərnişin daşınması 1,3 faiz, yük və sərnişin daşınmasından əldə olunan gəlir isə 1,9 faiz artmışdır.